**AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI**
**FƏLSƏFƏ, SOSİOLOGİYA VƏ HÜQUQ İNSTİTUTU**

*Əlyazması hüququnda*

**MUSTAFA KADIR OĞLU TUNCER**

# MÜQƏDDƏSLƏRƏ PƏRƏSTİŞ VƏ TÜRBƏ ZİYARƏTİNİN SOSİOLOJİ TƏHLİLİ (ƏYYUB SULTAN TÜRBƏSİ NÜMUNƏSİNDƏ)

**İxtisas: 6312.01- Sosiologiyanın nəzəriyyəsi, metodologiyası və tarixi**

Sosiologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın

**A V T O R E F E R A T I**

**BAKI- 2013**

Dissertasiya işi Bakı Dövlət Universitetinin «Sosiologiya» kafedrasında yerinə yetirilmişdir.

**Elmi rəhbər:** **fəlsəfə elmləri doktoru, professor Kazım Ağamirzə oğlu Əzimov**

**Rəsmi opponentlər:** **filologiya elmləri doktoru, AMEA-nın həqiqi üzvü, professor Vasim Məmmədəli oğlu Məmmədəliyev**

**fəlsəfə elmləri doktoru Sakit Yəhya oğlu Hüseynov**

**Aparıcı təşkilat:** **Azərbaycan Dövlət Neft Akademiyası («İctimai fənlər» kafedrası)**

Müdafiə "_05_"_04__2013-cü il tarixdə saat _____- da Azərbaycan Milli Elmlər Akademiyasının Fəlsəfə, Sosiologiya və Hüquq İnstitutu nəzdində elmlər doktoru və fəlsəfə doktoru elmi dərəcələri almaq üçün təqdim olunan dissertasiyaların müdafiəsini keçirən D.01.115 Dissertasiya Şurasının iclasında keçiriləcəkdir.

**Ünvan:** Bakı şəhəri AZ-1143, H.Cavid prospekti, 31,AMEA-nın Fəlsəfə, Sosiologiya və Hüquq İnstitutu, IX mərtəbə, konfrans zalı.

Dissertsiya ilə AMEA-nın Mərkəzi kitabxanasında tanış olmaq olar.

Avtoreferat "____"__________ 2013-cü ildə göndərilmişdir.

**D.01.115 Dissertasiya Şurasının elmi katibi, fəlsəfə üzrə fəlsəfə doktoru** **Sevinc Arif qızı Həsənova**

## DİSSERTASİYANIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı.** Dissertasiya işi mürəkkəb və çoxaspektli bir problemin – dini pərəstişin (kultun), onunla sıx bağlı olan türbə ziyarətinin sosioloji və metodoloji məsələlərinin təhlilinə həsr edilmişdir. Problemin ilk dəfə müxtəlif sosial elmlərin kəsişdiyi müstəvidə həmin elmlərin metodoloji prinsiplərinə adekvat olaraq sistemli şəkildə tədqiq edilməsi cəhdi özü-özlüyündə ciddi məna kəsb edir. Mövzu eyni zamanda Azərbaycan müstəqilliyini qazandıqdan sonra uğurla həyata keçirilən demokratik islahatlar, iqtisadi, sosial-siyasi, mədəni-intellektual dəyişikliklər, modernləşmə və ümumtürk mənəvi dəyərlərinin dirçəlişi fonunda xüsusilə aktualdır. Belə bir məqamı vurğulamaq istərdik ki, uzun müddət sovet totalitar rejimi şəraitində Azərbaycanda sosial-siyasi və humanitar elmlər marksizm-leninizm fəlsəfəsi, onun ideoloji ehkamları və prinsipləri üstündə köklənmişdir. Digər tərəfdən, cəmiyyət haqqında fundamental elmlərdən biri - müasir Qərb sosiologiyasının sovet ideoloji sistemi tərəfindən rədd edilməsi vəziyyəti daha da acınacqlı etmişdir. Xalqın öz adət-ənənələrinə, dini mərasim və ayinlərinə, əski kult, yas, bayram və folklor ənənələrinə pozitiv münasibətinə “millətçilik”, yaxud “mövhumat” möhürü vurulub gözdən salınırdı. Beləliklə, ateizm dinin cəmiyyətdə oynadığı hər hansı pozitiv sosial funksiyasını kökündən inkar edir, keçmiş dini-mənəvi irsin, xüsusən islam dəyərlərinin dirçəlişini ciddi surətdə əngəlləyirdi. Azərbaycan müstəqilliyini əldə etdikdən sonra bütövlükdə mədəni irsimizin, onun ayrılmaz tərkib hissəsi olan mənəvi dəyərlərimizin dirçəlişi sözün tam mənasında real məzmun kəsb edə bildi. Türk dünyasının görkəmli lideri Heydər Əliyev 1998-ci ildə “Müasirlik və dini-mənəvi dəyərlər” adlı Beynəlxalq konfransda çıxış edərək dini dəyərlərimizi yüksək qiymətləndirmişdir: “Müasir dünyada dini-mənəvi dəyərlərdən səmərəli şəkildə istifadə olunması hər bir ölkə üçün, hər bir xalq üçün, hər bir din üçün əhəmiyyətlidir”[1]. Bu baxımdan deyə bilərik ki, araşdırmamız mədəni ənənəni sadəcə varislik müstəvisində deyil, tarixi və mədəni irs kontekstində yenidən mənimsəyib dəyərləndirməklə onun müasir cəmiyyətimizin müxtəlif sferalarına daxil olmasına kömək edir. Yeniləşən Azərbaycan cəmiyyətində ideoloji və mədəni-intellektual orientirləri müəyyənləşdirmək, keçmişin mədəni irsini inkişafımızın tərkib hissəsinə çevirmək işi, əski dini-mənəvi dəyərlərimizin, onun kult-ayin-mərasim sisteminin dərindən öyrənilməsi xüsusi önəm kəsb edir. Əslində

---

[1] Əliyev Heydər. Dinimiz xalqımızın mənəvi sərvətidir. Bakı: 1999, s. 9

indiki şəraitdə islam dininə qarşı edilən ədalətsiz ittihamların təkzib edilməsinə, onun elmdən uzaq və qərəzli hücumlardan qorunmasına, islami dəyərlərin tarixi prosesə verdiyi töhfələrin konkret surətdə araşdırılmasına ciddi ictimai tələbat yaranmışdır.

**Mövzunun işlənmə dərəcəsi.** Türk və Azərbaycan sosial elmində, əski kult, türbə ziyarəti və dini ayinlər-mərasimlər sistemi, Əyyub Sultan türbəsinə edilən ziyarətlər əsasən filoloqlar, tarixçilər, etnoqraflar, antropoloqlar və qismən də filosoflar və sosioloqlar tərəfindən araşdırılmışdır. Bu araşdırmalar sırasında türk və Qərb, Azərbaycan və rus alimlərinin tədqiqatları xüsusi qeyd olunmalıdır. Həmin araşdırmaları ən ümumi şəkildə iki istiqamətdə təsnif etmək olar: a) Əyyub Sultan türbəsinin təsvirinə, onun mədəni-tarixi, habelə ümumi sosioloji aspektlərinə türk alimlərinin həsr etdiyi konkret tədqiqatlar; b) kult və türbə ziyarətinin ümümi nəzəri-metodoloji məsələlərini şərh edən Qərb antropoloji, linqvistik-etnoqrafik, qismən sosioloji tədqiqatları. Türkiyədə Hikmət Tanyunun[2], Ünvər Günayın[3], Bekir Koçun[4], Osman Nuri Karaobalının[5], Mustafa Demirdaşın[6], Şəfiqa Hengeroğlunun[7], Əli Əlioğlunun[8] araşdırmalarında Türkiyənin şəhər və əyalətlərində mövcud olan türbələr haqqında ümumi tarixi məlumatlar verilir. Mövzumuzla birbaşa bağlı olmasa da, dolayısı, yaxın araşdırmaların sırasında Əbdülqadir İnan[9], Orhan Acıpayamlı[10], Sedat Veyis Örnek[11], Şakir Ülkütaşır[12] və Hilmi Ziya

---

[2] Hikmet Tanyu. Ankara ve çevresinde adak ve adak yerləri. Ankara: A.Ü.Basemevi, 1968; Hikmet Tanyu. Türklerde Taşla ilgili inanclar. Ankara: A.Ü Basımevi, 1968.

[3] Ünver Günay və Heyet. Kayseri və Çevresinde ziyaret ve ziyaret yerleri. Kayseri: Kayseri Büyük Şehir Belediyesi Kültür Yayınları, 1996.

[4] Bekir Koç. Ürgüp ve çevresinde halk inancları ve adak yerləri. Ankara: A.Ü.İ. Fak. kütüphanesi. 1985

[5] Osman Nuri Karaobalı. İslamda türbə ziyarətləri və dənizli türbələri. Ankara: A.Ü.İ.F kütüphanesi. 1981

[6] Mustafa Demirdaş. Çanakkale ve çevresinde adak ve adak yerleri Ankara: A.Ü.İ.F kütüphanesi, 1981.

[7] Şafiqa Hengeroğlu. Edirne ve türbeleri haqqında bir araşdırma Ankara: A.Ü.İ.F kütüphanesi 1981

[8] Ali Alioğlu. Mustafa Kemal Paşa Dahalindeki Belli Başlı Türbeler, ziyarətlər yerleri: Bursa: UÜİFK kütüphanesi, 1988

[9] Abdülkadir İnan. Eski Türk Dini ve Tarihi. İstambul: 1976.

[10] Orhan Acıpayamlı. Doğumla İlgili Adet və inamların etnolojik Etüdü, Ankara: 1974.

[11] Sedat Veyis Ornek. Sivas ve çevresinde hayatın çeşitli Safhalariyla ilgisi batil inancların ve Büyüsel işlemlerin etnoloji tetkiki.Ankara: 1981.

[12] Şakir Ülkütaşır. Türkye türklerinde ad vermeyle ilgiлi gelenek görenek ve inancları. Uuluslar arası Türk Folklor Konqresi bildirileri Kül. Bak. Yay. Ankara: 1976.

Ülken[13] kimi alimlərin tədqiqatlarını qeyd edə bilərik. Bu günə qədər Türkiyədə mövzumuza yaxın olan araşdırmaların ortaq özəlliyi ondan ibarətdir ki, həmin əsərlər türbələri ziyarət edən fərdlərə deyil, ziyarət edilən türbələrin tarixi müşahidəsinə və strukturuna istinad edir.

Qərbdə aparılan araşdırmalarda isə kult-pərəstiş sisteminin ümumi nəzəri-metodoloji və sosioloji məsələləri nəzərdən keçirilmiş, habelə bir sıra konkret müqəddəs məkanların (məbəd, türbə, kilsə və s.) ziyarət edilməsi üzərində ümumi antropoloji, linqvistik-etnoqrafik baxış bucağından təhlil edilmişdir. [14] Amma bu araşdırmalar çox deyildir. Antropoloq Qlen Bauman qeyd edir ki, məbəd, kilsə, türbə üzərində aparılan çalışmalardan toplumların davranışlarını ölçməkdə bir meyar kimi istifadə oluna bilər, çünki bunlar fərqli sosial əməllərin bir göstəricisidir[15]. Viktor Turner məbəd, kilsə, türbə kimi fenomenlərin öyrənilməsinin əhəmiyyətini ilk dəfə olaraq ciddi şəkildə əsaslandıraraq, Zombiyada Nembu qəbiləsinin fərdləri üzərində apardığı araşdırmada yerlilərin sosial əməllərində başlıca prinsipləri ortaya çıxarmağa çalışmışdır[16]. Turnerə görə, Nembu qəbiləsinin özlərinə məxsus davranış və ifadə vasitələrindən gündəlik həyatda ortaya çıxan sıxıntıları, böhranları aradan qaldırmaq üçün bir kompensasiya mexanizmi kimi istifadə olunur. O, "məbəd, kilsə, türbə kimi yerləri ziyarətə qatılan fərdlərin gündəlik həyatlarından ayrılaraq, hər cür dəyərdən, dərəcədən, sosial statusdan və müxtəlif özəlliklərdən yüksək tutulan ziyarət anlarını yaşaması vəziyyətinə "communitas" (icma üzvlüyü) adını vermişdir. Müqəddəs yerləri ziyarət edən fərdlərin sosial statusu eynidir, burada onlar eyni əməli icra etdiyindən ortaq paya malikdirlər; həmin fərdlər bu ziyarətdən sonra yeni bir sosial rol, yeni haqlar və məsuliyyət alaraq toplumda yeni bir status qazanırlar. Qərbdə məbəd, kilsə, türbə kimi yerləri ziyarəti ilə bağlı aparılan antropoloji araşdırmaların əksəriyyəti Viktor Turnerin kommunitas nəzəriyyəsinə, yaxud Emil Dürkheyimin sosial həmrəylik nəzəriyyəsinə əsaslanır. Məsələn, Daniel

---

[13]Hilmi Ziya Ülken. Anadolu örf ve adetlerinde eski kültürlerin izleri A.Ü.İ.F. dergisi Ankara: 1971.

[14] Bader Chris and A. Demaris. A test of the Stark-Bainbridge theory of affiliation with religious cults and sects. Journal for the Scientific Study of Religion, 35, 1996, п. 285-303. Barker E. New Religious Movements: A Practical Introduction. London: 1989; Hadden, J and Bromley, D. eds. The Handbook of Cults and Sects in America. Greenwich, CT: JAI Press, 1993; Baumann Glenn. Antropology of Pilgrim Age. New Deli. 1985; Galanter, Marc M. (Editor). Langone M. D. Clinical Update on Cults, Psychiatric Times, July 1996, Vol. XIII , Issue 7.

[15]Baumann Glenn. Antropology of Pilgrim Age. New Deli: 1985.

[16] Viktor T. Symbols in African Ritual. New York: 1977.

Qrosun şimal-şərqi Brazilyadakı bir məbəddə apardığı araşdırma məhz Emil Dürkheymin sosial həmrəylik nəzəriyyəsinə istinad edir.[17] Əli Murat Yel Portuqaliyada Fatima məbədini ziyarət üçün gələn fərdlərlə apardığı söhbətlər nəticəsində belə qənaətə gəlmişdir ki, məbəd, kilsə, türbə kimi müqəddəs ziyarət yerləri, hər şeydən öncə, bir-birilə bağlı olan fərqli fikirlərin bir arenasıdır[18] .

Sovet dövrü Azərbaycan alimləri əsasən əski türk kult mərasimlərini və ayinlərini, türbə ziyarəti və müqəddəslərə pərəstisi, islam dini ilə əlaqədar yeni məqamları, kult sisteminin filoloji və tarixi-linqvistik məsələlərini məlum dövrün ideoloji prinsipləri ışığında öyrənmişlər. Azərbaycan müstəqilliyini qazandıqdan sonra dini dəyərlərimizin, bütövlükdə türk dünyasının mənəvi-mədəni irsinin dirçəlişi prossesi başlandı və hazırda bu proses əsasən mənəvi irsimizin toplanması, sistemləşdirilməsi və nəzəri tədqiq edilməsi istiqamətində uğurla irəliləyir[19].

Beləliklə, mövcud elmi ədəbiyyatın, araşdırmaların təhlili göstərir ki, kult və türbə ziyarətini sosioloji faktlar müstəvisində dissertasiya mövzusu olaraq sistemli araşdırıb təhlil edən tədqiqat işinə nə Türkiyədə, və nə də Azərbaycanda bu günə qədər rast gəlinmir. Qərbdə məhdud sayda olan araşdırmalar isə o qədər də geniş yayılmamışdır. Mövcud araşdırmaların da cox zaman antropoloji aspektlərdən yazıldığını nəzərə alsaq, bizim araşdırmamızın orijinallığı daha aydın ortaya çıxar. Buna türbəni ziyarətə gələn fərdlər üzərində aparılan soioloji anket araşdırmalarının nəticələrinin dəyərləndirilərək subyekt-obyekt əlaqəsində nəzərdən keçirilməsi də xeyli kömək etmişdir.

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqatın obyektini müqəddəs yerlərə fərdlərin, qrupların ziyarəti təşkil edir. Tədqiqatın predmeti isə Türkiyə ərazisindəki Əyyub Sultan türbəsinin nümunəsində müqəddəslərə pərəstişin və türbə ziyarətinin sosioloji təhlilini aparmaqdan ibarətdir.

---

[17] Daniel Gross. Ritual and Conformity: A Religious Pilgrimage to Northeastern Brazil. İn: Ethnology, vol.10, №2 (April). University of Pittsburg press, 1971.

[18] A.Murat Yel.An Antropological study of the Catholic pilgrimage to Fatima.London: 1995.

[19] Aslanova R. N. İslam və mədəniyyət. Bakı:2002; Xəlilov S.S. Mənəviyyat fəlsəfəsi. Bakı: 2007; Mövsümova L.C. Azərbaycan qadını uzaq keçmişdən indiyədək. Bakı: 2003; Азимов К.А. Проблема человека в религиозно-философских доктринах Зороастризма и Ислама. Баку: Letter press, 2010; H.Həsənoğlu. Azərbaycanın din tarixi abidələri, ziyarətgahları, seyidləri, övliyaları. I-II hissə. Bakı: Nasir nəşriyyatı 2005; N. Abdullayeva. Milli-mənəvi dəyərlərimizin formalaşmasında islamin yeri və rolu. Fəl. üzrə fəl. doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın avtoreferatı. Bakı: 2010; Əliyev R. İslam və Azərbaycan mədəniyyəti. Bakı: 1998.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqatın başlıca məqsədi kult, pərəstiş və türbə ziyarəti sisteminin genezis və təkamülünü, müasir Türkiyə cəmiyyətində Əyyub Sultan türbəsinə edilən ziyarətin nümunəsində fərdlərin sosial-mədəni, ictimai-psixoloji durumuna, sosial status və rollarına təsir göstərən amilləri sosioloji anket sorğusunun nəticələri əsasında araşdırmaqdan ibarətdir. Bu məqsədi reallaşdırmaq üçün tədqiqat işində aşağıdakı məsələlərin konkret həllinə cəhd edilmişdir:

- dini kultun, türbə ziyarətinin və pərəstişin fəaliyyət kontiniumunu sakral (müqəddəs) və profan (dünyəvi) prinsiplərdən irəli gələn ümumi kulturoloji və sosioloji mənalarını, yaxud faktlarını araşdırmaq;
- sosial fəaliyyət, mədəniyyət, sosial struktur, funksional inteqrasiya, hakimiyyət və münaqişə anlayışlarına istinad edən konseptual sosioloji struktur çərçivəsində kult, pərəstiş və türbə ziyarəti sisteminin genezisini və cəmiyyətdə təkamülünü tədqiq etmək;
- altmədəniyyət sisteminə daxil olan kult, pərəstiş və türbə ziyarətini, kultla bağlı dini inamları, etiqadları və simvolları mədəniyyətin vacib elementləri kimi nəzərdən keçirmək;
- kultun ümumi və sosioloji anlayışlarını, onun spesifik təbiətini, səciyyəvi xüsusiyyətlərini, ictimai proseslərdəki rolunu müəyyənləşdirmək;
- kult qrupunun yaranma səbəblərini araşdırmaq, onun formalaşmasını, cəmiyyət, qrup və fərdlə qarşılıqlı təsir və fəaliyyət mexanizmini təqdim edən müxtəlif klassik və müasir sosioloji modelləri nəzərdən keçirmək;
- əski türk və Azərbaycan kult ayin və mərasimlərinin, türbə ziyarətinin sadə din formaları kimi təkamülünü, tarixi inkişaf prosesində mürəkkəb din sistemində - monoteist islam dini kontekstinə adaptasiya, assimilə edilməsi və uyğunlaşmasını açıqlamaq;
- islamda türbə ziyarəti və ədəbi, doğru və yanlış (batil) inancların mənbələrini və səbəblərini müəyyən etmək;
- Əyyub Sultan türbəsinə ziyarətin səbəblərini, onun şəxsiyyətinə göstərilən pərəstişi, türbəni ziyarətə gələn fərdlərlə aparılan soioloji anket araşdırmalarının nəticələrini subyekt-obyekt əlaqəsində araşdırıb dəyərləndirmək və bunun əsasında bəzi praktik təklif və tövsiyələr hazırlamaq.

**Tədqiqatın elmi yeniliyi.** Dissertasiyanın elmi yeniliyi problemin qoyuluşundan, məqsəd və vəzifələrindən irəli gəlir və konkret olaraq aşağıdakı müddəalarda öz əksini tapır:

- türk və Azərbaycan kult mədəni sistemləri, xüsusən müqəddəslərə pərəstiş, türbə ziyarəti ilk dəfə sosioloji baxımdan təhlil olunmuş və

konseptual əsaslar kimi sosial struktur, sosial fəaliyyət, funksional inteqrasiya, hakimiyyət və mədəniyyət anlayışlarına istinad edilmişdir;

- belə bir fikir hərtərəfli əsaslandırılmışdır ki, müqəddəslərə pərəstiş və ziyarət dini-mənəvi və dünyəvi aləmlərin fərqlərini əks etdirir və qrup üzvlərinin fəaliyyətini tənzimləyən normalar sistemini yaratmaqla sosial fəaliyyətin vacib elementinə çevrilir; bu fəaliyyət isə gündəlik həyat tərzi və davranışı üçün müəyyən ritualları və və qaydaları, habelə onların yeniləşməsini nəzərdə tutur;

- işdə müqəddəslərə pərəstiş və ziyarətin sosial-tarixi təkamülü prosesi izlənilir və bu əsasda dinin ən sadə, bəsit forması olan kult, yaxud pərəstiş ruhani, müqəddəs, ən kamil və fövqəltəbii reallıq ideyasını yaradan, qrupdaxili və qruplararası mobilliyi təmin edərək həyatın məqsəd və mənasını anlamağa və onu hiss etməyə yardım göstərən ümumi inam, ayin və mərasimlərin spesifik mədəni sistemi kimi səciyyələndirilir. Bu sistemdə həyatın adi, gündəlik, utilitar aspektlərini ehtiva edən dünyəvi aləmdən fərqli olaraq, müqəddəs məkan öz nizamı baxımından yüksəkdir, məna etibarilə son dərəcə önəmlidir;

- dissertasiyada əski Azərbaycan və türk kultlarının, ziyarət prosesinin islam mədəniyyəti məcrasında transformasiyası, onların yeni mühitə uyğunlaşması, əlavə olaraq, fəlsəfi, sosioloji və mistik aspektlər qazanması, pərəstiş-kult anlayışının yeni məzmun və forma kəsb etməsi konkret faktlar əsasında nəzərdən keçirilmişdir. Bu halda Əyyub Sultan türbəsinə türk-müsəlman əhalisinin etdiyi ziyarətin konkret sosioloji tədqiqi aparılmış, bu ziyarətə münasibətin müxtəlif aspektləri və məqamları aydınlaşdırılmış, habelə ənənələrlə müasirliyin özünəməxsus şəkildə çulğalaşması prosesində dünyəviləşmənin ən müxtəlif müqavimətlərlə üzləşməsinə baxmayaraq, üstün meylə çevrilməsi əsaslandırılmışdır.

**Tədqiqatın nəzəri-metodoloji əsasları**. Tədqiqatın nəzəri-metodoloji əsaslarının formalaşmasında ümummilli lider Heydər Əliyevin və Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin, Türkiyyə Cümhurriyyətinin Prezidenti Abdulla Gülün və Baş Bakan Rəcəb Tayyip Ərdoğanın çıxış, məruzə və müsahibələrində irəli sürülmüş müddəalar xüsusi rol oynayır. Tədqiqatın metodoloji əsasını ümumi elmi idrak metodları, elmi izah və təsvir, tənqidi və tarixi yanaşma prinsipləri, analiz və sintez, induksiya və deduksiya, sistem yanaşma metodları, ümumi sosiologiya və din sosiologiyasında istifadə olunan metodlar və elmi yanaşma prinsipləri təşkil edir. Tədqiqat işində anket sorğusu, müşahidə, müsahibə kimi metodlardan, kəmiyyət (statistik faktlar və ölçmə texnikası) və keyfiyyət (faktların sosioloji mənasını açmaq) xarakterli yanaşma

prinsiplərindən geniş istifadə edilmişdir. Həmçinin Azərbaycan, Türkiyə və xarici ölkə alimlərinin bu sahədə apardığı elmi araşdırmalar nəzəri əsas kimi tədqiqata cəlb olunmuşdur.

**Tədqiqatın elmi-nəzəri və praktik əhəmiyyəti.** Bu, hər şeydən öncə, dissertasiya işinin yenilikləri ilə sıx surətdə bağlıdır. Tədqiqatın konseptual sosioloji məqamları, nəzəri müddəaları, işdə müraciət olunmuş empirik sosioloji metodlar və ölçmə qaydaları Türkiyədə, eləcə də Azərbaycan Respublikasında problemin gələcəkdə daha konkret istiqamətlər üzrə tədqiqi işində istifadə edilə bilər. Dissertasiya işi sosiologiya, din sosiologiyası, sosial antropologiya, dinşünaslıq və kulturologiya kimi fənlərin tədrisi, habelə xüsusi seminarların, konfransların, treninqlərin və s. hazirlanmasi və keçirilməsi üçün əhəmiyyətlidir. İşin başlıca ideyaları və materialları sosial praktikanın və gündəlik həyatın tələbləri ilə sıx bağlı olduğundan, həmin materiallardan sosial və siyasi idarəetmə ışində, həmçinin təlim-tərbiyə prossesində istifadə etmək olar.

**Dissertasiya işinin aprobasiyası.** Dissertasiya Bakı Dövlət Universitetinin «Sosiologiya» kafedrasında yerinə yetirilmiş, müzakirə olunmuş və müdafiəyə təqdim edilmişdir. Dissertasiyanın əsas ideyaları və müddəaları müəllifin Türkiyyədə, Azərbaycanda və xaricdə nəşr olunmuş elmi məqalələrində, habelə respublika və beynəlxalq elmi-nəzəri və praktik konfranslarındakı çıxışlarında öz əksini tapmışdır.

**Tədqiqatın strukturu.** Dissertasiya giriş, üç fəsil (on bir yarımfəsil), nəticə, istifadə edilmiş ədəbiyyat siyahısı və əlavədən ibarətdir.

## DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

Dissertasiyanın «**Giriş**» hissəsində mövzunun aktuallığı əsaslandırılır, problemin işlənilmə dərəcəsi araşdırılır, tədqiqatın obyekti və predmeti, məqsəd və vəzifələri, nəzəri-metodoloji əsasları müəyyənləşdirilir, konseptual əsasları, elmi yenilikləri, elmi-nəzəri və praktik əhəmiyyəti, aprobasiyası və strukturu açıqlanır.

Dissertasiyanın birinci fəsli «**Müqəddəslərə pərəstişin (kultun) və türbə ziyarətinin metodoloji və sosioloji məsələləri**» adlanır. Bu fəslin **«Kultun ümumi və sosioloji tərifləri»** adlı **ilk yarımfəslində** pərəstiş, yaxud kult anlayışının mahiyyəti və təzahür formaları, semantik çalarları şərh edilir. Qeyd olunur ki, problemin müfəssəl şərhi onu din sosiologiyası kontekstində din və onun üç əsas elementi - inam, sosial praktika və sosial icma ilə bağlı sosiloji təhlilin predmeti kimi nəzərdən kecirməyi zəruri edir. Bunun üçün əsas arqument ondan ibarətdir ki, türbə ziyarəti və

müqəddəslərə pərəstiş əski azərbaycanlıların və türklərin ən sadə din forması olmuşdur. Fikrimizcə, türbə ziyarəti və müqəddəslsərə pərəstiş yuxarıda qeyd etdiyimiz elementlərlə birlikdə Azərbaycan və türk mədiniyyətində altsistemi təşkil edir. Deməli, altsistem kimi türbə ziyarəti və müqəddəslərə pərəstiş daha böyük sistemin - mədəniyyətin, sosial praktika keyfiyyətində isə sosial fəaliyyətin daha təşkilatlanmış forma və nümunələrini əmələ gətirməklə sosial icmanın əsas struktur elementinə çevrilir. Bizim konseptual yanaşmamız klassik və müasir sosiologiyanın əksər hallarda dinə verdiyi təriflərin ruhuna tam uyğundur. Birincisi, dindarların əksəriyyəti Allaha, yaxud ali bir varlığa inanır və bu inam fərdlərin məxsus oldugları mədəniyyətin əsas struktur elementidir. İkincisi, din insanların sadəcə nəyə inandığını deyil, həmcinin nə etdiklərini və necə davarandıqlarını ifadə etdiyindən əksər sosiologlar sosial fəaliyyətin ən yuksək səviyyədə təşkilatlanmış nümunəsi kimi sosial praktikanı, yaxud təcrübəni önə çəkirlər. Ücüncüsü, bu halda dinin insanları qrup şəklində formalaşdırmasına, onlar arasında müəyyən sosial münasibətləri şərtləndirməsinə diqqət yetirilir və müxtəlif fərdlərin və qrupların əxlaqi borc, vəzifə və davranışını tənzimləyən sosial icmanın rolu xüsusi vurğulanır. Beləliklə, ümumilikdə din sosiologiyası konkret olaraq dini sosial praktika və strukturlarla, tarixi mənşə və inkişafla əlaqəli şəkildə, cəmiyyətdə oynadıqı rolları və funksiyaları baxımından öyrənir. Başqa sözlə, sosiologiyanın vəzifəsi cəmiyyətlə din arasında qarşılıqlı münasibətləri araşdırmaqdan ibarətdir. Bu şərhə adekvat olaraq, dini grupların belə tipologiyası təklif edilir: ruhanilər (əsasən kilsə, sinaqoq və məsciddə dini xidmətdə olanlar); kilsə qrupları, subqruplar və məzhəblər; kultlar; təriqətlər.

Qeyd etmək lazımdır ki, kult və təriqət terminlərinin populyar neqativ mənasından fərqli olaraq sosiologiyada həmin terminlər daha dəqiq və pozitiv mənada işlədilir. Lakin kulta nəsə universal, hamını razı salan bir tərif vermək düzgün olmazdı. Bu cəhəti nəzərə alaraq, kultun ümumi tərifinə aşağıdakı elementləri daxil etməyi təklif edirik: formal dini təzim, hörmət, ehtiram, səcdə; dini etiqad və ritualllar sistemi, onun əsas tərəfdarları; qeyri-ortodoks, yaxud "saxta" din və onun tərəfdarları; onun təsisçiləri və təbliğatçılarının formalaşdırdıqları ehkamlara əsasən xəstəliklərin sağaldılması, vasitəçilik missiyası; hər hansı bir şəxsə, ideyaya, obyektə, hərakata, yaxud işə güclü bağlılıq və ehtiram göstərilməsi.

Birinci fəslin **«Dini kultun sosioloji mahiyyəti. Klassik modellər»** adlı ikinci **yarımfəslində** dini kultun mühüm xarakteristikaları

müəyyənləşdirilir, dinin sosioloji mahiyyətinin açıqlanması ilə əlaqədar Marksın "ictimai özgələşmə", Dürheymin "sosial bütövləşmə və həmrəylik" və Veberin "motivləşdirici funksiya" modellərinin şərhinə xüsusi diqqət yetirilir. Bu yarımfəsildə kult sistemi aşağıdakı fundamental sosioloji konseptlərin işığında təhlil edilir: mədəniyyət, sosial fəaliyyət, sosial struktur, fuksional inteqrasiya və hakimiyyət. Bu konseptual struktur çərçivəsində müasir din sosiologiyasına əhəmiyyətlə dərəcədə təsir göstərmiş konsepsiyalar ətraflı təhlil olunur və qeyd edilir ki, sosiologiyanı dini inamın, məsələn, kultun, yaxud türbə ziyarətinin doğru, yaxud yalan olması maraqlandırmır. Sosioloji təhlilin məqsədi dinin sosial təşkilatlanması prosesini, onu sosial həmrəyliyin əsas mənbələrindən biri kimi, nəhayət, dini müraciəti şəxsi, ruhi, yaxud psixoloji amillərdən ziyadə sosial amillər və institutlar əsasında öyrənməkdən ibarətdir. Bu baximdan biz təhlili dini inam, ayin və mərasimlərin, həmçinin tədqiqatımızın bilavasitə predmeti olan türbə ziyarəti və müqəddəslərə pərəstişin müxtəlif aspektlərinin müfəssəl şərhinə yönəltmişik. Belə yanaşmada kult cəmiyyətlə gərginlik və münaqişə şəraitində davranan dini qrupun yeni dini baxışını, ayin, mərasimlər və simvollar sistemini ehtiva edir. Beləlıklə, kultun sosioloji tərifi ziyan, sui-istifadə, manipulyasiya, yalan və buna bənzər neqativ xarekteristikaları nəzərə almaqla, kulta daha cox pozitiv-funksional yanaşmanı nəzərdə tutur. Kult cəmiyyətdə pozitiv funksiyaların daşıyıcısına cevrilə bildiyi kimi, kultdan kənarda bəzi gruplar neqativ funksiyaların icraçısına cevrilə bilərlər. Cəmiyyətlə münaqişə mövqeyindən səciyyələnməsinə baxmayaraq, eyni qrup konkret məkan-zaman daxilində kultun daşıyıcısı kimi çıxış edə bilər, yaxud kultla heç bir əlaqəsi olmaya bilər. Kultun sosioloji mahiyyəti aşağıdakı aspektləri ehtiva edir: kiçik qrup; məhdud struktur; qeyri-müəyyən inkişaf; harizma-lider; mistika və fərdə yönümlülük; ideologiya (dominant dindən kənarda). Kult daşıyıcıları ayrı-ayrı fərdlər olsa da, sosial fəaliyyət növü kimi kult məhz gruplarda gerçəkləşir. Kult sosial interaksiya prosesidir və sosial strukturdan kənarda baş verə bilməz. Sosial struktur sosial interaksiyadan doğur, eyni zamanda interaksiya prosesinə önəmli təsir göstərir. Sosial interaksiya, hər şeydən öncə, sosial qruplar daxilində mövcuddur. Bu və ya digər qrupun üstünlüyü və cəlbediciliyi qrup əlaqələrinin insanlara verdiyi imtiyaz və mükafatlarla müəyyən olunur. Bu cür dini qruplarda iştirak insanlarda ümumi icma hissini, mənşə və soy ümümumiliyi şüurunu günclәndirir, fərdlər arasında dostluq və əməkdaşlıq əlaqələrini, maraqların oxşarlığını və ümümiliyini təmin edir.

Birinci fəslin **«Kult qrupunun yaranma səbəbləri. Müasir sosioloji modellər»** adlanan **üçüncü yarımfəslində** qeyd edilir ki, nəzərdən keçirilən klassik modellərin heç birisi dini qrupun və kultun formalaşma mexanizmini açmaq üçün kifayət deyildir. Bu səbəbdən də müasir sosioloji modelləri nəzərdən keçirmək zərurəti yaranır. Yarımfəsildə qeyd edilir ki, psixopatoloji model dinin yaranmasını onun banisinin həyatında baş vermiş dərin streslərlə bağlayır. Dini lider psixoloji problemlərdən əziyyət çəkir və dini həmin problemlərin həllinə cavab kimi yaradır. Dinin inkişafı özünüterapiya, yaxud özünümüalicə vasitəsi kimi qavaranılır. Antrprener yaxud işgüzar model dinin banilərini işgüzar adamlarla eyniləşdirir: hər ikisi "məhsullarını" (dinləri) müştərilərinə satmağa çalışır. Adətən yeni dinlərin yaradıcıları, bu modelə görə, öncə bir sıra dini qruplara məxsus olur, orada yetərincə təcrübə toplayandan sonra yeni dini yaratmağa başlayır. Bu zaman əvvəllər mövcud olmuş dinlərdən ideya və konseptləri mənimsəyir, sonra həmin ideyalardan yeni dinin formalaşmasında istifadə edir, ideyaları daha populyar şəkildə təbliğ edir. Bunun əksi kimi sosial model dinin banisini deyil, keçmişdə movcud olmuş dini qrupların rolunu xüsusi vurğulayır. Bu model kultun yaranmasını daxili partlayışın nəticəsi kimi izah edir. Dini qrupun üzvləri qrupdankənar adamlarla çox zəif əlaqədə, öz aralarında, əksinə, daha intensiv təmasda olurlar. Deməli, qrup üzvləri arasında affektiv və emosional əlaqələr artdığı halda onların qrupdanxaric üzvlərlə münasibətləri getdikcə zəifləyir. Beləliklə, qrup daxilində sosial partlayış baş verərsə, qrup həmin vəziyyətdə yeni teologiya və rituallar sistemi yaradacaqdır. Sosioloq Stark sonrakı tədqiqtında normal vəhy modelini buraya əlavə edir: bu modelə görə, dinin banisi adi təbii hadisələri fövqəltəbii hadisələr kimi şərh etməklə yeni dini yaradır[20]. Fikrimizcə, hər bir model dinin bu və ya digər aspektini açıqlayır, lakin dinin formalaşmasını, dini gruplara qoşulmağın səbəblərini kompleks şəkildə əhatə edə bilmir. Ona görə də bu məsələ ilə bağlı olan, lakin bir-biri ilə ziddiyyət təşkil edən üç müxtəlif sosioloji nəzəriyyə nəzərdən keçirilir. Əksər sosioloqlar və dinşünaslar tərəfindən dəstəklənən məşvərətçı-məsləhətçi modelə görə, insanların müəyyən kult qrupunda birləşməsinin səbəbi onların qrup haqqında fikir və düşüncələridir. Psixodinamik model qrupun üzvlər üçün faydalı olmasını, onların bişüur ehtiyaclarını müəyyən dərəcədə ödəyə bildiyini, beyin-fikir islahatı modeli isə sistematik psixoloji manipulyasiya proqramına

[20] Stark R. and Bainbridge Ü.S. Of Churches, Sects, and Cults: Preliminary Concepts for a Theory of Religious Movements Journal for the Scientific Study of Religion 18, no 2; 1979, 117-133.

əsaslanmaqla və üzvlərin ehtiyaclarını ödəmədiyini, əksinə, onların istismar və istifadə edildiyini xüsusi vurqalayır. Sonuncu iki model öz metoduna görə yaxın olub tandem təşkil edir. Yarımfəsildə qeyd edilir ki, heç bir nəzəriyyə ayrılıqda məsələni tam izah etmir. Bu məsələ qrup üzvlüyü, yaxud "qrupa daxil edilmə" baxımından sosiologiyada daha əhəmiyyətli rol oynaya bilər. İşdə həmin paradiqmaya uyğun olaraq bir sıra status və rollar xüsusi vurğulanır: dini qruplarda birləşməyin səbəbləri adi qrupda birləşməyin səbəblərindən mahiyyətcə cox da fərqlənmir; konversiya emosional təcrübə olaraq fərdin həyatını köklü şəkildə yenidən təşkil edir və bu təcrübə intensivlik dərəcəsinə və göstərdiyi təsirin davamlılığına görə fərqlənir; konversiya dini qrupa qoşulmağın yeganə səbəbi deyildir; səbəblər kimi izahedici nəzəriyyələr də müxtəlifdir; diqər qruplara (dini olmayan qruplara) birləşməyin motivləri nəzərə alınmalıdır; bütün nəzəriyyələrin ümumi cəhəti prosesin təbiiliyini qəbul etməkdən ibarətdir.

Dissertasiyanın ikncі fəsli **«Kult və türbə ziyarətinin cəmiyyətdə təkamülü və funksiyaları»** adlanır və dörd yarımfəsildən ibarətdir. Bu fəslin **«Kult, türbə ziyarəti və mədəniyyət»** adlı **birinci yarımfəslində** qeyd edilir ki, müqəddəs etiqadlar və simvollar sistemi dinin nüvəsini təşkil edir. Ibtidai insanlar və qruplar inanırdılar ki, onların əhatəsində olan meşə, çay, ağac və təbiətin digər predmet və hadisələri nəsə fövqəltəbii varlıqlardır. Məsələn, onlar meşə və torpağı fərdiləşdirilir, yəni onları insan və şəxs şəklində təsəvvür edirdilər. Animizm adlanan bu cür inamlarda başlıca ideya bundan ibarətdir ki, yaşadığımız dünyanın bəzi predmet və hadisələri, məsələn dağ, meşə, ağac, cay və s. fəal, canlandıran, şəfaverici ruhlara malikdir. İbtidai dövrlərdə qədim türklər əcdadlarının ruhlarına tapınırdılar; onların inam sistemi təbii qüvvələrə etiqad etməkdən fövgəltəbii qüvvələrə və varlıqlara tapınmaq dərəcəsinədək uzun bir təkamül yolu keçmişdir. Sosioloji baxımdan önəmli fakt ondan ibarətdir ki, qədim inamlar dünyanı dini (sakral) və dünyəvi (profan) məkan və zaman müstəvisində qavrayır və həyatın mənasını bu əks qütblər yönündən dəyərləndirirdilər. Bu cür sadə ibtidai dinin mahiyyəti öz əksini transendent varlığa inamda deyil, əksinə, ibtidai cəmiyyət və dünyanın hadisələrini iki fərqli zaman və məkan, yəni sakral və profan hadisələrə, predmet və əşyalara olan inam sistemində tapmışdır. Sakral, yaxud dini-mənəvi aləm bir sıra inam, ayin, mərasim və adətlərin məcmusundan ibarət olub, profan-dünyəvi aləmdən kənarda movcuddur. Gündəlik həyat və təcrübədən xeyli dərəcədə təcrid olan sakral aləm dindarlarda müqəddəs şəxslərə, predmet və hadisələrə münasibətdə hörmət, ehtiram və xeyirxahlıq hisslərini tərbiyə edir, ulu əcdadlarla varisləri arasında, müxtəlif totemlərin və müqəddəs

şəxslərin, ayin və mərasimlərin vasitəciliyi ilə körpü rolunu yerinə yetirirdi. Bu cür inamlarla bağlı müqəddəs ayinlər və adətlər ibtidai Azərbaycan və türk cəmiyyətlərinin hissələrini bütövləşdirmək, fərdlər arasında münasibətləri tənzimləməyə, klan, tayfa, qəbilə qrupları arasında həmrəylik və mobillik hisslərini gücləndirməyə, yaxud əksinə, münaqişələrin törənməsinə xidmət edirdi. Bu sonuncu məqam qədim Azərbaycan və türk dünyasında müxtəlif etnos və dini baxışların, qəbilə, tayfa və qəbilə birləşmələrinə məxsus totemlərin, onqonların mübarizəsində və çarpazlaşmasında öz əksini tapmışdır[21]. Dünyanı sakral və profan sferalara ayıran, bu cür bölgüyə əsaslanan ibtidai dini görüşlərin, dini mərasim, ayin və adətlərin əsasında ibtidai azərbaycanlı və türkün sadə bir fəlsəfəsi dururdu: bizdən fərqli olaraq onlar üçün zaman və məkan nəsə homogen varlıq deyildi. Təcrübədən onlara bəlli idi ki, hər ikisi fasilələrdən ibarətdir, xüsüsən zaman və məkanın bəzi hissələri keyfiyyətcə digərindən fərqlənir. Deməli, müqəddəs məkan movcuddur və o, dünyəvi aləmin amorf, yaxud formasız-bicimsiz, dayanıqsız məkanından fərqli olaraq, dindar uçün qüclü, məna etibarı ilə son dərəcə önəmli, keyfiyyətli və simvolik məkandır. Bu yarımfəsildə belə bir fikir vurğulanır ki, qədim türk və Azərbaycan soyları, tayfa və qəbilələri, etnik qrup və klanları struktur etibarilə ən sadə cəmiyyətdə yaşayırdı və tapındığı din də cox sadə bir din idi. Totem onların dinində önəmli yer tuturdu. Adətən heyvan, bitki, həmçinin diğər təbii və kosmik qüvvələrdən ibarət olan totemlər həm tayfa, qəbilə və yaxud klanı, həm də onların müqəddəs saydıqları şeyləri rəmzləşdirirdi. Tayfa, qəbilə və klanlar sadə insan qruplarından olub, konkret heyvan və bitki, yaxud onların soy və növləri ilə əlaqə yaratmaqla öz identikliyini ifadə edirdilər. Bu identiklik müxtəlif vasitə və formalarda həyata kecirilirdi. İbtidai cəmiyyətlərdə, həmcinin əski turk və Azərbaycan cəmiyyətlərində klanın, yaxud klan toteminin arxetip olması bir faktdir. Deməli, sosial təşkilatlanma və cəmiyyətin bütövlüyü onu təşkil edən fərdlərin oxşarlığından, daha dəqiq desək, onların bir-birindən fərqli olmamasından irəli gəlirdi. Fərdin özünü bir fərd kimi dərk etməsi, başqa sözlə, fərdi şüur sosial, yaxud kollektiv şüurun tarixi inkişaf məhsuludur. Bu nəzəriyyənin əsasında duran fəlsəfi ideya ondan ibarətdir ki, fərd kollektivin özünü ifadə edir və kollektiv struktur fərdin spesifik məsuliyyət və borclarını müəyyən edir: kollektiv dəyərlərin müqəddəsliyi fərdləri sosial toplumda əhatə edir və onları cəmiyyətə daha möhkəm inteqrasiya edir. Pozitiv və neqativ xarakterindən asılı olmayaraq, ayin və mərasimlərin əsas funksiyası icmada

---

[21] Seyidov M. Azərbaycan mifik təfəkkürünün qaynaqları.Bakı: Yazıçı,1983, s.11.

sosial nizam və qayda-qanunu təmin etməkdən ibarətdir: icmaya dəstək vermək, fərdlərin qrupa mənsub hislərini gücləndirmək və canlandırmaqla onların inam və inanclarını qoruyub saxalamaq. Beləliklə, kult sistemi ilə bağlı adət-ənənələr, ayin-mərasimlər, davranış qaydaları ibtidai dinin həm simvolları və həm də onu canlandiran-dircəldən praktik fəaliyyətin məcmusudur.

İkinci fəslin **«Kult, hakimiyyət və liderlik»** adlanan **ikinci yarımfəslində** qeyd edilir ki, kultun ən səciyyəvi əlamətlərindən biri mənəvi rəhbər və ya liderin dominantlığı, yaxud hakimiyyətidir. Bir anlayış kimi xarizma daxilən müəmmalı və çətin izah edilən fenomendir. Lakin bir fakt daha aydın müşahidə olunur: bütün xarizmalı liderlərin qrup üzvləri üzərində dominantlığı və hakimiyyəti vardır və təbiətinə görə bu ilahi hakimiyyət, yaxud talant bəşər övladı qədər qədimdir. Lider eyni zamanda kultun yaradıcısı və şərhçisidir. Üzvlük və kultun uğuru liderə olan itaət, ona göstərilən təzim, hörmət və sərancamların qeydsiz-şərtsiz yerinə yetirilməsindən asılıdır. Liderin üzvlərin həyatına təsiri və onların fərdi həyatında oynadığı rol son dərəcə əhəmiyyətlidir. Kult üzvləri kəmiyyətcə artdıqca, kult iyerarxik struktur kəsb etməyə başlayır. Bu cür iyerarxiya liderə vaxta qənaət etməkdən savayı, həm də hər bir üzvü, yaxud şagirdi təlimləndirmək və onu nəzarəti altında saxlamağa imkan verir. Bəzən yuxarı rütbələri tutanlar bir-biri ilə qohumluq telləri ilə bağlı olur və bu, kultdaxili loyallığı ailənin vasitəçiliyi ilə möhkəmləndirmək işində olduqca əhəmiyyətli rol oynayır. Bütövlükdə kult liderinin məqsədi hakimiyyət olmuşdur. Tarixən kultun forma və məqsədləri müəyyən cəmiyyət və mədəniyyət tipindən asılı olmuşdur. Bu baxımdan əski dini kultları, həmçinin onların məqsəd və funksiyalarını müasir dünyəvi, siyasi və ideoloji kultlardan fərqləndirmək vacibdir. Lakin burada bizim diqqətimizi əsasən əski dini-xarizmatik liderliyin və ənənəvi hakimiyyətin sosioloji aspektləri çəkir. Bu yarımfəsildə göstərilir ki, qədim türk və Azərbaycan cəmiyyətlərində xarizmanın ən primitiv forması şamanizm idi. Qədim türk qəbilə-tayfa birlikləri arasında türkəçarəlik, azərbaycanlılarda maqlar, Sibir və Koreya xalqları arasında şaman həm "Allahın verdiyi xəstəlik", həm də xəstəliyi sağaldan və insanlara şəfa bəxş edəndir. Şaman müqəddəs yerləri ziyarət edir və öz tayfasının adından, onun xeyri üçün dünya ruhu ilə tayfası arasında bir vasitəçi rolunu oynayir. Bundan savayı, şaman psixofarmakoloji, şəfavericilik, trans hallarını böyük ustalıqla bilir və icra edir, güclü idarəetmə bacarıqları və vərdişlərinə malikdir. Şəxsi ruhi keyfiyyətlər qazanmaqla şamanın "yüksək psixoloji gərginliyə", sehrli, təhlükəli və fövqəltəbii qabiliyyətlərə malik olması onun cəmiyyətdə qorxusuz və

idarəolunmaz varlıq kimi statusunu müəyyən edir. Şamanın daxili narahatlığı, spesifik vərdiş və bacarıqları ona qrupun ehtiyac və maraqlarını, "xəstəliyini" diaqnozlaşdırmağa imkan verir. Antropoloq Veston La Barre şamanın bacarığını "şamanın hər cür müqaviməti qıran cazibədar xislətindən axıb gələn məşum fövqəltəbii və universal biliyi və yenilməz qüdrəti" kimi səciyyələndirir və əlavə edir ki, şamanın bu cür bacarığı qrup üzvlərinin "bişüur arzu və fantaziyalarını sərrast və ağlasığmaz dəqiqliklə müəyyən etməkdən ibarətdir"[22]. Bu cür qüdrət sahibi cəmiyyətdə xususi status qazanır, lakin ona göstərilən hörmət və təzim sevgiyə deyil, qorxuya əsaslanır. Xarizmalı lider, şübhəsiz, orijinal keyfiyyətlərə malikdir, lakin onu liderin ardıcılları, yaxud qrup üzvləri müəyyən edirlər. Fikrimizcə, ümumiyyətlə xarizma fundamental dini anlayışdır. Bu baxımdan daha önəmlisi xarizmanın "maqik" və "profetik" variantlarıdır. Maqik xarizma, şamana, yaxud maqa (sehrbaza) aid edilir və mühafizəkar qüvvə kimi tayfa adət-ənənələrini qoruyur. Veberə görə, profetik xarizmaya daha mürəkkəb cəmiyyətlərdə təsadüf edilir və peyğəmbər, digər növdən olan xarizmalı liderlər üçün prototipdir. Fikrimizcə, xarizmanın ruhi xəstlıklə heç bir əlaqəsi yoxdur, onun mənbəyi xarizmalı liderin bişüur qatında movcud olan "gərgin hiss və emosiyalar"dır. Bu qeyri-adi emosiya, Veberin də qeyd etdiyi kimi, ekstaz, eyforiya və siyasi ehtiraslar formasında təzahür edir. Qrup üzvləri, yaxud liderin ardıcılları da eyni hisslərə malikdir, əks halda xarizma təşkilatlana bilməz. Veber xarizmaya sosial, psixoloji və iqtisadi münqişə və gərginlikdən qurtulmaq üçün bir vasitə kimi yanaşır. Xarizmalı liderin özü böhranlardan qurtulmağın və azadlığın modelidir. Fikrimizcə, liderin ardıcılları və tərəfdarları iradələrini liderin şəxsiyyətinə deyil, onda təcəssüm etmiş hakimiyyətə təslim edirlər: əslində hakimiyyət, yaxud güc iflasa uğrayanda hamı lideri tərk edir. Beləliklə, xarizma "quru" qanunlara, konformizmə, repressiya və yeknəsək həyat qaydalarına qarşı duran emosional həyati qüvvə kimi çıxış edir.

İkinci fəslin **«İslamda müqəddəslərə pərəstiş və əski kultların sosiallaşması»** adlanan **üçüncü yarımfəslində** türklərin əski kult sisteminin və türbə ziyarətinin islam mədəniyyəti konteksində transformasiya xüsusiyyətləri araşdırılır. Qeyd olunur ki, islam öz tarixi inkişafında, ən azı, iki amili sintez etmişdir: bir tərəfdən, ona məxsus olan konsepsiyaları, digər tərəfdən, özündən əvvəl mövcud olmuş əski

[22] Nicholson R. The doctrine of perfect man in Sufism. London, Quest 1917, p. 147; daha ətraflı bax: Oakes L. Prophetic Charisma: The Psychology of Revolutionary Religious Personalities. New York, Syracuse University Press, 1997.

mədəniyyətlərin təsirlərini. Zahirən belə görünür ki, islam əski təssəvvürləri tarix meydanından uğurla sıxışdırıb cıxarmışdır. Əslində islam həmin ideya və təssəvvürləri saf-çürük edib öz dünyagörüşü sisteminə uyğunlaşdırır, müsəlman cəmiyyətlərində sosiallaşmanın uğurla həyata keçirilməsi işində əski kultlardan məharətlə istifadə edirdi. Əlbəttə, əgər islam dinini qəbul etmiş müxtəlif etnik və milli qrupları təmsil edən dindarların bütün arzu və istəkləri nəzərə alınsaydı, onda islam dini-etiqadın və kult sisteminin ilkin prinsipləri ciddi təhlükəyə məruz qalardı[23]. Ona görə də islam ilkin təliminin davamlılığı naminə məqbul strategiyalar seçir və zəruri hallarda kompromisə gedirdi. İslamın ilkin mənbələrinə istinad edib deyə bilərik ki, islam dini kult və müqəddəslərə pərəstiş məsələsində dindarların arzu və tələblərini maksimum ödəməyə çalışmış, əski kultları ictimai sosiallaşma prosesinin vacib elementinə çevirə bilmişdir. Bundan əlavə, əski kultların fəlsəfi aspektlərini gücləndirməklə onların islam mədəni sistemi daxilində inkişaf etmiş yunan məntiqi və rasional fəlsəfəsinin qarşısında duruş gətirməsinə imkan yaratmış, mistik aspektlərini gücləndirməklə dindarların yeni tələb və arzularına cavab verə biləcək yeni həyatı təmin etməyə çalışmışdır.

Bu yarımfəsildə sünni və şiə məzhəblərinə məxsus müqəddəs şəxslərin, övliyaların, şeyxlərin, mürid və mürşüdlərin müsəlman cəmiyyətlərində qazandığı soial statuslar və oynadığı rollar geniş sosioloji təhlil edilir və belə bir nəticə çıxarılır ki, əski Azərbaycan və türk kultları, onların türbə ziyarətləri ümumislam qaydaları və normaları çərçivəsində uğurla sintez edilir və sosiallaşır. İslam dini həmin sintezdən daha da faydalanır və inkişafın keyfiyyətcə yeni mərhələsinə daxil olur. Işdə islama həsr olunmuş müasir sosioloji araşdırmalara istinad etməklə İslam ümmətçiliyi və dövləti bu inkişafın ən mühüm örnəklərindən biri kimi tədqiq olunur. Qeyd edilir ki, sosioloji baxımdan İslam ümmətçiliyi, yaxud dar mənada “müsəlman icması” ümumi ilahi inam və qanunun həyata keçirilməsinə əsaslanan sosial institutdur. Bu icmada idarəetmə sisteminin fəaliyyəti qrupların, təşkilatların və ictimai birliklərin qarşılıqlı əlaqə və münasibətlərinə əsaslanır. Qanunlar hakimiyyət institutlarını deyil, gündəlik həyatın səciyyəvi təffərrüatlarını idarə edir. Dərin kök salmış dini konstitutsiya hakimiyyətin təşkilat prinsiplərini əks etdirmir, o, daha çox icmanın və qrup üzvlərinin həyat və davranışı üçün vacib əxlaq və hüquq normalarını təmin edir. İslam mədəniyyəti daxilində, bir tərəfdən əski kultlar adaptasiya olunur, digər tərəfdən isə yeni kultlar meydana gəlirdi. Bu tarixi proses

[23] Гольдциэр И. Культ святых в Исламе. Москва: ОГИЗ, 1938, с. 21-22

islam düşüncəsi kontekstində eyni teoloji-fəlsəfi problemin bir-biri ilə sıx bağlı olan iki tərəfi kimi, Allahla insan və Peyğəmbərlə insan arasında münasibətlər şəklində təzahür edirdi. İndi əsas problemlərdən biri peyğəmbərlərin varislərini və Allahın dostlarını (övliyaları), yaxud seçdiyi müqəddəsləri islam prinsiplərinə uyğunlaşdirmaqdan ibarət idi. Islam inkişaf etdikcə özgə əski dini adət-ənənələri, rəvayətləri, ayinləri və mərasimləri köklü surətdə dəyişdirir, öz dünyəvi və mənəvi prinsiplərinə uyğunlaşdırırdı. Əlbəttə, bu proses heç də həmişə və hər yerdə rəvan olmamışdır. İslam dinini qəbul etmiş ayrı-ayrı xalqların və ölkələrin əski dini ayin, mərasim, kult və pərəstiş sistemləri çox vaxt islamin rəsmi idelogiyası, yaxud ehkamlar sistemi ilə toqquşur, intelluktual, sosial-siyasi və ideoloji zəmində ciddi gərginlik və münaqişələr törədirdi. Şərqşünas İ.Qoldsiyer bu prosesi islam ehkamlarının nəzəri əsasları ilə islamin geniş xalq kütlələri tərəfindən qəbul edilmiş praktiki formaları arasında fərq kimi izah etməyə çalışmışdır.[24] Bu məsələdə bizim mövqeyimiz bir qədər fərqlidir: xalqların əski dini adət, ayin və mərasimləri, o cümlədən kult qaydaları, yaxud ədəbi rəsmi islamin ideoloji prinsiplərinə, qaydalarına uyğun tərzdə ciddi transformasiyalara uğradıqdan sonra islam ilahiyyatçılarının və onların təsir dairəsində olan geniş əhali kütləsinin də dəstəyini ala bilmişdir. İslamın sonrakı inkişafında bu proses ikitərəfli olmuşdur: islam həm əski kultları assimilə edir, həm də yeni ictimai mühitin mənəvi ehtiyaclarını odəməkdən ötrü mövcud sosial mühütə uyğunlaşırdı. Bu prosesdə islamın monoteizm prinsiplərinə uyğun gəlməyən və onda kənarda inkişaf edən əski kultlar tədricən unudulur, yaxud "senzuranın" təzyiqlərinə tab gətirməyib tarix səhnəsindən silinib gedirdi. Lakin ədalət naminə qeyd etmək lazımdır ki, bəzi əski kultlar, açıq bütpərəst təbiətinə baxmayaraq, günümüzədək yaşamaqdadır. Bu cür ayin və adətlər daha çöx dar çərçivədə və kiçik icma (bəzən iki və ya daha xırda icmaların yanaşı yaşadığı cəmiyyətdə) və qruplarda əski toy, şənlik və təmtaraqlı mərasimlərin ünsürləri şəklində təzahür edir. Bir daha vurğulamaq istərdik ki, əski kultlar və onlarla bağlı dini ayin, mərasim və xalq adət-ənənələri əsas istiqamətinə görə islam prinsipləri kontekstində inkişaf edir və onların assimilyasiya mərhələsi islam inteqrasiyası mərhələsi ilə uğurla sonuclanır. Bu assimilyasiya-inteqrasiya prosesləri sayəsində əski kultlar günümüzədək qorunub saxlanmışdır.

İkinci fəslin **"İslamda türbə ziyarəti və ədəbi. Əhd və yanlış (batil) inancların mənbələri"** adlanan **dördüncü yarımfəslində** qeyd edilir ki,

---

[24] Гольдциэр И. Культ святых в Исламе. Москва: ОГИЗ, 1938, с. 61-62.

Türkiyədə türbələri ziyarət əsnasında təzahür edən davranışların bir qismi islam dininin şərtlərinə cavab verdiyi üçün əhd qrupuna aid edilə bilər. Yanlış inanc adlandırılan bəzi davranışların isə din tərəfindən müdafiə edilmədiyi vurğulanır və onların tarixin dərinliklərinə qədər gedib çıxan səbəbəri və mənbələri müəyyənləşdirilir. İslam prinsiplərinə görə hansı məqsədlərlə bir türbənin ziyarət oluna biləcəyi müfəssəl izah edildikdan sonra batil inancların sərhədləri, təzahürləri, onların təməlində duran səbəblər aydınlaşdırılır. Qeyd edilir ki, yanlış inanclar kollekıiv şüuraltı qatların çox dərinliklərində gizlənir. Şizofreniya kimi xəstəliklər zamanı belə inanc davranışları ortaya çıxır. Bu xəstəlik olmadıqda da norınal insanlarda bir müdafiə mexanizmi şəklində psoxoloji mühafizə və gerçəklikdən qaçma vasitisi kimi yanlış inanclar gündəlik həyatımızda özünü göstərir. Belə ki, bəzən hətta yüksək təhsilli insanlar da xəstəliklərə (sonsuzluq və s. problemlər) düçar olduqları zaman müasir tibbin və psixologiyanın qəbul etmədiyi yalançı inanclara müraciət edirlər. Bununla yanaşı, türbələrdəki ağaclara əski bağlamaq, bu yerlərlə təmas saxlamaq üçün özlərinə aid əşyaları orada qoymaq kimi yalançı inancları dünyanın hər yerində görmək mümkündür. Xüsusən qeyd edilir ki, Anadoludakı adətlərin təməlində üç əski təsir dayanır: a) Altay mədəniyyətinin təsiri; b) onunla qarışan yerli və xristian inanclarının təsiri; c) türklərin müsəlman olduqdan sonra ərəb, fars təsirinə məruz qalması Yanlış inancların mənbəyinin təhlili göstərir ki, onların təməlində dayanan əsas səbəblər bunlardır: psixoloji, təbii qanunları bilməmək, gələcəyi irəlicədən bilmək arzusu, qorxu, şər qüvvələri təmsil edən zərərli mifoloji obrazlara qarşı mübarizə aparmaq əzmi, nəhayət, yalançı inancların yaranmasına və möhkəmlənməsinə rəvac verən nəşrlərin, verilişlərin yayılması.

Dissertasiyanın üçüncü fəsli **«Əyyub Sultan şəxsiyyətinə pərəstişin və türbəsinə edilən ziyarətin empirik sosioloji təhlili»** adlanır və üç yarımfəsildən ibarətdir. Bu fəslin **«Əyyub Sultanın həyatı, şəxsiyyəti və türbəsinin tərtibi»** adlı **birinci yarımfəslində** ılkin və mötəbər tarixi mənbələrə istinad edılərək bu göıkəmli şəxsiyyətin, müsəlman dünyasının ən məşhur müqəddəslərindən biri, Məhənıməd peyğəmbərin yaxın sirdaşı, silahdaşı Əyyub Sultanın (miladdan sonra 589 – 672/3) həyatı, fəaliyyəti, islam-türk tarixində yeri və rolu, türk-müsəlman dünyasında türbəsinin tərtibi, memarlıq sənətinin parlaq nümunəsi kimi estetik prinsipləri, sənətkarlıq xüsusiyyətləri, incəlikləri müfəssəl nəzərdən keçirilmişdir. Türbənin ic görkəmi, ordakı əşyaların təsvirindən sonra türbədəki tarixi sənədlər təhlil edilir. Müqayisə nəticəsində belə bir ümumi

qənaət əldə edilir ki, islam kalliqrafiya sənətinin nümunəsi kimi türbədə olan yazılar müsəlman mədəniyyətinin ən gözəl nümunələrindəndir.

Üçüncü fəslin **«Türbənin sosioloji təhlilinin metodologiyası»** adlı **ikinci yarımfəslində** Əyyub Sulıan türbəsini ziyarət edənlərin ziyarət səbəbləri, ziyarət nəticəsində onlarda yaranan sosial və psixoloji vəziyyətləri sosioloji baxımdan təhlil edilir. Qeyd olunur ki, sosial-psixoloji fəaliyyət olaraq ziyarətin iki tərəfi vardır: sııbyekt və obyekt. Subyekt dedikdə ziyarət edən fərd, obyekt dedikdə isə ziyarət edilən yer başa düşülür. Ziyarətçilərin sosial-psixoloji obyekt kimi gördükləri Əyyub Sultan türbəsinə münasibətdə sərgilədikləri davranışlardan biri də bura gələrkən qusullanmaq, nafilə namazını qılmaq və imkansızlara yardım etməkdir. Ziyarət hadisəsinə subyekt-obyekt əlaqələri müstəvisində baxdığımıza görə obyekt olan Əyyub Sııltan türbəsinin üstünlük, arxayınlıq və sevilmək kimi özəllikləri subyekt vəziyyətində olan ziyarətçiləri özünə bağlamaqda və itaət etdirməkdədir. Bu bağlılıq və itaət zaman keçdikcə inanca çevrilir. Fərdlərin bu inancı obyektin ilahiləşdirilməsi nöqtəsinə qədər başa düşülə bilər. Bütün bu ünsür və motivlərin birləşməsi ziyarət yerinə müqəddəs dəyərlər verərək bütöv bir toplumun kollektiv şüurunda özünə yer alıb ziyarət hadisəsinə çevrilir. Beləliklə, ziyarət fenomeni kollektiv şuurla baglı sosial-psixoloji gerçəklik kimi qarşıya çıxır. Əyyub Sultan türbəsinə gələn insanların bir qismi Əyyub Sultanı bir vasitə kimi görürlərsə, digər qismi tələb və arzularını xarizmatik bir tip olan müqəddəsə istiqamətləndirir: hər iki vəziyyətdə bu sakral məkanda ziyarətçilərin ən geniş şəkildə icra etdikləri iş duadır. Biz araşdırma zamanı müşahidə, anket, müsahibə və s. kimi metodlardan istifadə edərək türbəni ziyarət edən insanların ziyarət səbəblərini və ziyarətdən sonrakı sosial və psixoloji durumlarını sosioloji baxımdan təhlil etdik. Bundan əlavə, məqsədimiz ayrıca fərdlər tərəfindən edilən ziyarətlərin cins, yaş, gəlir, təhsil və mədəni vəziyyət kimi nıüstəqil dəyişən kəmiyyətlərlə anketimizdə öz əksini tapan asılı dəyişən kəmiyyətlər arasında hər hansı əlaqənin olub-olmadığını müəyyənləşdirməkdən ibarət olmuşdur. Empirik araşdırmalarımıza əsaslanaraq müəyyən etdik ki, fərdlərin təhsil səviyyələri ilə Əyyub Sultan haqqındakı bilikləri, habelə türbə ziyarəti zamanı təzahür edən şuurlu davranışları arasında, təhsil saviyyələri ilə sıxıntı və gərgin anlarında türbəyə gəlmələri arasında, cinsi mənsubiyyətlə türbə ziyarəti arasında anlamlı, müsbət bir əlaqə vardır, lakin fərdlərin gəlir səviyyələri ilə türbə ziyarətləri zamanı şuurlu davranışları arasında belə bir əlaqənin mövcudluğu təsdiqlənmədi.

Araşdırmanın bu hissəsində anketin hazırlanması, sınağı və sorğunun təşkili, habelə respondentlərin xüsusiyyətləri ilə bağlı ətraflı şərhlər verilmişdir.

Üçüncü fəslin **«Anket sorğusunun nəticələri: sosioloji dəyərləndirmə»** adlanan **üçüncü yarımfəslində** Əyyub Sultan türbəsinə edilən ziyarətin psixoloji və sosioloji aspektlərini ölçmək üçün anket sorğularından istifadə edilmişdir. 27 sualdan ibarət anketimizi türbəni ziyarət edən fərdlərə (5-10 nəfərlik qruplardan ibarət 500 nəfərə) ünvanladıq. Hazırladığımız anket sorğularının xətalarını və tətbiq edərkən qarşılaşacağımız sualları görə bilmək məqsədilə Əyyub Sultan türbəsində 3 dəfə sınaq yoxlaması apardıq. Bu ilk yoxlamalar əsasında gerçək olan suallar müəyyən edilmişdir. Hazırlanmış suallarımız dörd bölmədən ibarətdir: 1-ci bölüm fakt xarakterli sualları, 2-ci bölüm məlumat sualları, 3-cü bölüm davranış suallarını, 4-cü bölüm psixoloji xarakterli sualları əhatə edir. Bu əsasda bütövlükdə nəticələrin sosioloji dəyərləndirilməsi üç qismə ayırılır və onlar ayrı-ayrılıqda nəzərdən keçirilir. Birinci qisim bilgi ölçüləri ilə bağlı nəticələri ehtiva edir və respondentlərin dini biliklərinin mənbələrini, Əyyub Sultanın kimliyini, Əyyub Sultan və türbəsi haqqında məlumatla bağlı nəticələri təhlil edir. Nəticələrin ölçülməsi zamanı respondentlərin dini biliklərinin mənbəyi ilə cinsləri arasındakı əlaqə nəzərdən keçirilmişdir. Nəticələrdən aydın olur ki, anket sorğusunda iştirak edənlərin 34,44 faizi dini bilgisini ana və atalarından öyrənmişdir (o cümlədən qadınların 40.83%-i, kişilərin isə 28.1%-i). Dini bilikləri müstəqil surətdə əldə edənlərə 29.25% təşkil edir (o cümlədən kişilərin 30.17%-i, qadınların isə 28.33%-i). Eyni zamanda müstəqil dəyişənlər (cins, yaş, gəlir, təhsil və s.) ilə asılı dəyişənlər arasındakı əlaqə müəyynələşdirilmişdir.

İşdə respondentlərin Əyyub Sultanın kimliyi haqqında bilikləri ilə cinsləri arasındakı əlaqə də araşdırılmışdır. Araşdırmanın nəticələrinə görə, anket sorğusuna qatılanların əksəriyyəti (276 nəfər, yəni 57,26%) Əyyub Sultanı Peyğəmbərin arxadaşı (dostu) hesab etmişdir. Cins qrupları baxımından baxdıqda kişilərin 65.7%-i, qadınların isə 48.75%-i Əyyub Sultanı Peyğəmbərin dostu hesab edərək doğru qiymət vermişlər. "Tanımıram" deyənlərin sayı cəmi 18 nəfər (3.73%) olmuşdur (o cümlədən qadınların 5%-i, kişilərin isə 2.48%-i). Tədqiqat zamanı respondentlərin Əyyub Sultanın kimliyi haqqındakı bilikləri ilə yaşları, təhsilləri və s. arasındakı əlaqə də müəyyənləşdirmişdir.

İkinci qismə aid nəticələr ziyarət prosesi ilə bağlıdır, yəni ziyarətdən əvvəlki hazırlıq, ziyarət tezliyi və ziyarət vaxtı ilə bağlı

nəticələri əhatə edir. Bu halda Əyyub Sultan türbəsinə ziyarətini gerçəkləşdirən fərdlərin ziyarətdən əvvəl hər hansı bir hazırlıq görüb-görmədikləri, normal bir yerin ziyarəti ilə özünə fayda gətirən bir məkanın ziyarəti arasında nə fərq gördükləri, həmçinin bu türbəni ziyarəti edən fərdlərin hansı tezliklə bu ziyarəti etdikləri araşdırılmışdır.

Nəticələrin üçüncü, yaxud sonuncu qismi isə ziyarət motivləri ilə bağlıdır. Bu qismdə ziyarətin qayəsi və səbəbi, ziyarət zamanı göstərilən fəaliyyətlər və ziyarərtin fərd üzərindəki təsiri ilə bağlı nəticələr təhlil edilmişdir. Bu, anketimizin ən önəmli və diqqətəlayiq qismlərindən biridir. Çünki bu hissədə bir tərəfdən ziyarətə təsir edən daxili (psixoloji) və xarici (kənar) sosial amillər, digər tərəfdən isə ziyarəti gerçəkləşdirən fərdin ziyarətdən sonra necə psixoloji hal, ruhi ovqat içərisində olduğu ilə bağlı nəticələr təhlil edilir. Hər üç qismdə müstəqil dəyişənlərlə (cins, təhsil, gəlir, ailə vəziyyəti, yaş və s.) asılı dəyişənlər arasındakı əlaqənin kvadrat ($x^2$) analizi aparılmışdır.

Üçüncü fəslin **«Azərbaycanda müqəddəslərə pərəstişin müqayisəli aspektləri»** adlanan **dördüncü yarımfəslində** Azərbaycan ərazisində sadə (kult) və mürəkkəb (xristian və islam) din formalarının inkişaf tarixi, onların mərhələ və dövrləri müasir din sosiologiyası və psixologiyasının metodoloji yanaşma prinsipləri müstəvisində qısaca şərh edilir, müqəddəs şəxslər, yerlər və ziyarətgahların ümumi indeksasiyası tərtib edilir. Qeyd edilir ki, Azərbaycanın arxaik müqəddəs yerləri və kult ayinlərinin spesifik əlamətləri lokal-avtoxton, arxaik xüsusiyyətlərə malikdir; yerli and, sitayiş və inanclarla sıx bağlılığı, pir, təndir, bərəkət, atəş-od və ocaqlarla genetik əlaqələri və digər keyfiyyətləri onların bılavasitə qədim azərbaycanlılarla və türklərlə sıx bağlı olduğunu göstərir. Tarixi-coğrafi faktlara, qədim Azərbaycan ərazilarində muasir arxeoloji qazıntılar nəticəsində aşkar edilmiş maddi mədəniyyət nümünələrinə, qədim şifahi və yazılı mənbələrdə qeydə alınmış Azərbaycana məxsus din və sivilizasiyanın ilkin inkişaf formalarına əsaslanaraq, ümümi mədəniyyətimizin inkişafı kontekstində dinin, həmçinin müxtəlif kult ayinlərinin, marasimlərinin, müqəddəs yerlərin və ziyarətgahların təkamülünün, əsas mərhələləri və dövrləri müəyyənləşdirilir. Hər mərhələ və dövrdə kult sisteminin, sadə bir din forması olaraq, əski və müasir cəmiyyətlərimizdə yerinə yetirdiyi sosial funksiyaları və rolları geniş təhlil edilir. Qeyd edilir ki, keçmis mədəni irs sadəcə varislikdən ibarət deyil, problem keçmiş mədəni irsimizi müasir intellektual və mənəvi həyatımızın tərkib hissəsinə çevirməkdən ibarətdir. Bu baxımdan mərhələlər içində "mənəvi və kulturoloji dirçəliş" adlandırdığımız 4-cü mərhələ Azərbaycan xalqının öz dininə, qədim adət-ənənələrinə, ayin

va mərasimlarinə qayıdışı mərhələsidir ki, bu da Azərbaycan dövləti müstəqilliyini yenidən qazandıqdan sonra gerçəkliyə çevrilməkdədir. Bu mərhələnin səciyyəvi əlaməti kimi dini tolerantlıq Azərbaycan dövlətinin və millətinin sülhsevərliyini və humanistliyini bir daha demokratik islahatlar və inkişaf kontekstində təsdiqləyir. Mənəvi-ruhi hakimiyyət olaraq din ağlı, hiss və affektləri sintez edir. Bu keyfiyyətində mənəvi hakimiyyət Azərbaycan cəmiyyətində bir sıra mühüm funksiyaları yerinə yetirir. Əcdadlarımızın yaratdığı dinlər və əski kultlar millətimizin sosial və daxili dünyasını tənzimləməyə xidmət edir, insanları ümümi məqsədlərə çatmaqdan ötrü səfərbərliyə alır və möhkəm qrup mobilliyini təmin edir. Din vətəndaşlara nizam və qayda-qanuna riayət etməyin zəruriliyi inamını aşılayır, belə bir məqama xüsusi diqqət yetirir ki, cəmiyyətdə ahəngdar münasibətlərin qərarlaşması olmadan nizamlı sosial həyatın özü mümkünsüzdür. Yarımfəsildə müasir sosial-siyasi və mədəni inkisaf kontekstində Azərbaycanda ideoloji və mənəvi oriyentirlərin seçilməsi, müəyyənləşdirilməsi prosesi, əski ritual və kultların dirçəldilməsi, onların milli inkişaf və siyasi hakimiyyətlə münasibətləri, ümumtürk mədəniyyəti ilə bağlı məsələləri müqayisəli şəkildə müfəssəl şərh edilir.

**Dissertasiyanın əsas məzmunu müəllifin nəşr olunmuş aşağıdakı məqalə və tezislərində öz əksini tapmışdır:**

1. Müqəddəslərə pərəstişin və türbə ziyarətinin soioloji və metodoloji məsələləri// Dünyaya baxiş. Elmi-nəzəri, praktik jurnal, Bakı Avrasiya Universiteti, Bakı: 2007, №7, s.145-157.
2. Əyyub Sultan Türbəsinə ziyarətin sosioloji analizi //Dünyaya baxış. Elmi-nəzəri, praktik jurnal, Bakı Avrasiya Universiteti, Bakı: 2007, №8, s.164-182.
3. İslam dinində inancın fəlsəfi mənalandırılması// Fəlsəfə. Elmi-nəzəri jurnal, AMEA Fəlsəfə və Siyasi-Hüquqi Tədqiqatlar İnstitutu. Bakı: 2007, № 4 (9), s.155-160.
4. Əyyub Sultan Türbəsinə ziyarətin empirik sosioloji analizi: nəticələrin soioloji dəyərləndirilməsi// Dünyaya baxiş. Elmi-nəzəri, praktik jurnal, Bakı Avrasiya Universiteti, Bakı: 2008, №1, s. 160-180.
5. Dini kultun (pərəstişin) sosioloji mahiyyəti və kult qrupunun yaranma səbəbləri (klassik və müasir sosioloji modellər) // Turan Strateji Araşdırmalar Mərkəzi Dergisi, cild 3, say 11. Konya/Türkiyə, 2011, s.69-74.

6. İslam cəmiyyətində dini kultların transformasiyası // Bakı Dövlət Universiteti İlahiyyat fakültəsinin Elmi Məcmuəsi, Bakı: 2011, №16, Dekabr (Aralık), s.149-175.

7. İslam mədəniyyəti kontekstində əski kultların təkamülü və transformasiyası /Глобализация как этап развития мирового сообщества. Материалы международной научно-практической конференции, 25-26 сентября 2011 года. Пенза-Сургут-Баку: 2011, с.14-20 (щяммцялифля).

8. İslamda müqəddəslərin pərəstişi və türbə ziyarəti. İslamdan öncəki kultların sosiallaşması /Глобализация как этап развития мирового сообщества. Материалы международной научно-практической конференции, 25-26 сентября 2011 года. Пенза-Сургут-Баку: 2011, с.20-24 (həmmüəliflə).

9. İslamda müqəddəslərin pərəstişi və türbə ziyarəti, əski türk kultlarının sosiallaşması. İstanbul: 2011, 42 s.

10. Ənənəvi hakimiyyətin sosioloji təhlili// Elmi əsərlər. Beynəlxalq elmi-nəzəri jurnal. AMEA-nın Fəlsəfə, Sosiologiya və Hüquq İnstitutu. Bakı: 2012, №1 (18), s. 181-185.

**Мустафа Кадыр оглы Тунджер**

# Социологический анализ культа святых и паломничества к гробницам (на примере гробницы Эйюба Султана)

## РЕЗЮМЕ

Диссертация посвящена социологическому анализу одной из актуальных проблем культа святых и паломничества к гробницам на примеры Эййуба Султана, которая в данном аспекте исследована явно недостаточно.

Диссертация состоит из введения, трех глав, включающих 11 параграфов, заключения, списка использованной литературы и приложения.

Во введение обосновывается актуальность избранной темы, харектеризуется степень ее разработанности, определяются цели и задачи, научная новизна, теоретико-методологические основы и научно-практическая значимость исследования.

Первая глава -«Методологические и социологические вопросы культа святых и паломничества к святым гробницам» заключает в себе три параграфа. В указанной главе исследуются сущность и содержание понятий культа святых, паломничества к святым гробницам как сложного социального феномена, выявляются основные причины образования религиозных культовых групп. В методологическом и социологическом аспекте особое внимание уделяется анализу существующих в научной литературе подходов и концепций к религиозному культу святых, дается авторское понимание природы религиозно-культовых действий в разных культурах и обществах, в том числе в культурах Турции и Азербайджана.

Вторая глава, озаглавленная «Эволюция и функции в обществе культа святых и паломничества к святым местам», и состоящая из четырех параграфов, посвящена анализу религиозного культа и паломничества к святым гробницам в контексте турецких и азербайджанских культур как системы религиозных верований и символов. Раскрываются механизмы взаимодействий религиозного культа с властью и лидерством на микро- и макроскопическом уровнях. Особому социологическому анализу подвергнуто почитание святых и святых мест в исламе, адаптация древнетюркских и азербайджанских религиозных культовых систем в социокультурном контексте новой монотеистической религиозности, в которой старые культы обретают мистические, философские и социологические значения. Раскрываются особенности эволюции паломничества к святым местам, этических правил паломничества к гробницам святых в исламе, анализируются причины и источники истинных и ложных верований и убеждений верующих.

Третья глава, названная «Эмпирико-социологический анализ почитания личности и паломничества к святой гробнице Эййуба Султана», и состоящая из четырех параграфов, посвящена анализу жизни и личности, паломничества к гробнице турецкого святого и религиозного деятеля, сподвижника пророка Мухаммеда. Здесь широко использованы материалы социологического опроса, анкетирования и личных наблюдений. Социологический анализ выстраивается с учетом измерения знания паломничества, процесса паломничества и мотивов паломничества, и полученные результаты оцениваются на количественном и качественном уровнях.

В заключении диссертации подведены итоги проведенного исследования, сформулированы его основные теоретические и практические выводы, сделан ряд предложений по оптимизации дальнейшего исследования настоящей темы.

**Mustafa Kadır oglu Tuncer**

**The sociological analysis of the cults of saints and pilgrimages to the tombs (A case study in the pilgrimage to Eyyub Sultan's tomb)**

**SUMMARY**

The thesis is devoted to the sociological analysis of one of the important problems. i.e. the cults of saints and pilgrimages to the tombs by undertaking a case study in the Eyyub Sultan's tomb. The given aspects of the problem have not been explored sufficiently in the academic literature.

The dissertation consists of introduction, three chapters that include 11 paragraphs, conclusions, the list of references and the appendices.

In the introduction the relevance of the research theme, the degree of its elaboration, its goals and tasks are substantiated, also the scientific novelty, the theoretical and methodological foundations, the academic and practical significance of the dissertation are defined.

The first chapter, «Methodological and sociological questions of the cult of saints and the pilgrimage to the tombs», implicates three paragraphs. It examines the content and form of the concepts of sacred cult and pilgrimage to sacred shrines as a complex social phenomenon, uncovers the causes of religious cult group formations. In the methodological and sociological aspects a special attention is paid to the analysis of the viewpoints that exist in the academic literature on approaches and conceptions concerning the cult of the saints and the pilgrimage to holy shrines. It also sets forth and reveals the author's own view on the nature of cult of the saints in different societies and cultures with a focus on the cultures of Turkey and Azerbaijan.

The second chapter, named «The evolutions and functions of the cult of saints and pilgrimage to the holy shrines», comprises four paragraphs. It is devoted to the analysis of the cult of saints and the pilgrimage to the holy shrines in the context of the Turkish and Azerbaijani cultures as a system of religious beliefs, rituals and symbols. The mechanisms of the interactions of the religious cults, both on the macro- and micro levels, with the social institutions, different powers and the leadership are revealed. A special sociological analysis is undertaken in connection with the cult of saints and the worship of images and holy places that are known from pre-Islamic eras, the adaptation and socialization of ancient Turkic and Azerbaijani cult and worship systems to the sociocultural contexts of the new monotheistic Islam in which the old cults, holy images and places acquire philosophical, mystical and sociological meanings. The main features of evolution of worship of saints, the pilgrimage to the tombs of saints, the ethical rules of the pilgrimage to sacred places in Islam, the causes and the sources of true and false beliefs of believers are exposed.

The third chapter, named «The empirical sociological analysis of worship of personality and pilgrimage to the holy shrine of Eyyub Sultan», comprises three paragraphs, is devoted to the study of life and personality, the pilgrimage to the holy shrine of the Turkish saint and religious figure, the associate of the prophet Muhammad, Eyyub Sultan. This section widely explores sociological surveys, questionnaires, interviews and personal observations. The sociological analysis is built up upon the triple level of the knowledge, the process and the motives of pilgrimages to the sacred shrine of Eyyub Sultan, and the results of the pilgrimage activiiies of the believers are assessed on both quantitative and qualitative levels.

The concluding part of the dissertation sums up the whole investigations, formulates its basic theoretical and practical assumptions, makes some proposals and recommendations on how to further improve research on the present issue.

**НАЦИОНАЛЬНАЯ АКАДЕМИЯ НАУК АЗЕРБАЙДЖАНА**
**ИНСТИТУТ ФИЛОСОФИИ, СОЦИОЛОГИИ И ПРАВА**

---

*На правах рукописи*

**МУСТАФА КАДЫР оглы ТУНДЖЕР**

# СОЦИОЛОГИЧЕСКИЙ АНАЛИЗ КУЛЬТА СВЯТЫХ И ПАЛОМНИЧЕСТВА К ГРОБНИЦАМ
## (на примере гробницы Эйюба Султана)

**Специальность: 6312.01- Теория, методология и история социологии**

## А В Т О Р Е Ф Е Р А Т

**диссертации на соискание ученой степени доктора философии по социологии**

**БАКУ-2013**